

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 fevral 2026-cı il №15 (3017) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə qərara alıram:

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 fevral 2026-cı il

## Dəqiqlik, intizam və peşəkarlıq



*Şanlı Zəfərlə yaddaşlara həkk olunan İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun yüksək döyüş hazırlığının, peşəkar idarəetmə sisteminin və güclü maddi-texniki təminatının real nəticəsini bütün dünyaya nümayiş etdirdi. Müharibə günlərində aydın şəkildə göründü ki, ordumuz ən müasir silah və texnikalarla təchiz olunmaqla yanaşı, istənilən döyüş tapşırığını dəqiq və qətiyyətlə yerinə yetirə bilən hazırlıqlı komandir heyətinə, Vətən uğrunda canından keçməyə hazır igid əsgərlərə malikdir.*

Cəmi 44 gün ərzində düşmən üzərində qazanılan tarixi Qələbə təsadüfi deyil, uzun illər ərzində həyata keçirilən məqsədyönlü ordu quruculuğu siyasətinin, dövlət səviyyəsində Silahlı Qüvvələrə göstərilən davamlı diqqət və qayğının məntiqi nəticəsi idi.

**(Ardı 4-cü səhifədə)**

## Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı verib.

Başsağlığında deyilir: "Türkiyə Respublikasına məxsus F-16 qırıcı təyyarəsinin qəzaya uğraması nəticəsində bir hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçuya Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailəsinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

## "Sabah" qəzeti: Azərbaycan və Türkiyə Silahlı Qüvvələri ortaq taleyin birləşdirdiyi ordulardır


ŞABAH ☰ SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM EĞİTİM DÜNYA

TEK MİLLET, İKİ DEVLET

"Tek millet; iki devlet" anlayışıyla hareket eden Türkiye ve Azerbaycan'ın Silahlı Kuvvetleri de kader birliği yapmış iki ordu olarak nitelendiriliyor.

44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlıq daha da güclənib. İki qardaş ölkənin Silahlı Qüvvələrinin ortaq taleyin birləşdirdiyi ordular kimi qəbul edilməsi təsadüfi deyil.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Sabah" qəzetində ölkənin Silahlı Qüvvələrinin regional və beynəlxalq səviyyədə sülhə və sabitliyə verdiyi töhfəyə həsr olunmuş məqalədə deyilir.

Məqalədə "Bir millət, iki dövlət" kəlamı kontekstində Ankara ilə Bakı arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulanır.

Diqqət Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında çoxsaylı birgə təlimlərə, eləcə də hər iki ölkənin hərbi qulluqçularının iştirakı ilə digər təlim proqramlarına yönəlib.

## Ötən həftə 203 mina və 796 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevralın 16-22-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 175, tank əleyhinə 28 mina və 796 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1616,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## Sirli və möhtəşəm Gülüstan qalası

Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri olan, əsası Şirvanşahlar dövləti tərəfindən qoyulan Gülüstan qalası tariximizin hələ tam açılmayan möhtəşəm, həm də sirli xəzinələrindəndir. Qalanın tikildiyi dövr haqqında hələlik dəqiq məlumat yoxdur.

Gülüstan qalası Şamaxı şəhərindən 3 kilometr şimal-qərbdə, sıldırım qayalı bir dağın zirvəsində tikilib. Əngəxaran kəndinin yaxınlığında yerləşir. Vaxtilə Şirvanşahların qərargahı və hərbi istehkam məntəqəsi olan bu qala tarix boyu baş verən vuruşmalar və zəlzələlər nəticəsində tamamilə uçulub-dağılıb. İndi onun yalnız bəzi bürclərinin, divarlarının və binalarının xarabalıqları qalıb.



Qalanı şərq tərəfdən Pirdirəki dağı əhatə edir. Sıldırım qayalı bir dərə Pirdirəki dağını Gülüstan qalasının yerləşdiyi dağdan ayırır. Dağın cənub ətəyində Xınıslı kəndi, qərb tərəfində isə 6-7 km məsafədə Meysər dağı və Meysəri kəndi yerləşir. Gülüstan qalasında tikilmiş istehkamlar əsas etibarilə iki hissədən ibarətdir: birincisi, qalanın yerləşdiyi dağın yuxarısındakı keçmiş şəhər yerini əhatə edən və yaxınlıqdakı Xınıslı kəndindən aydın görünən ön istehkamlardır. İkincisi isə dağın ən yüksək zirvəsində tikilən və uzaqdan kəsilmiş konusa bənzəyən iç qalanın - "Narın qalanın" istehkamlarıdır.

**(Ardı 8-ci səhifədə)**

# Müdafiə Nazirliyinin rəhbər heyəti hava hücumundan müdafiə bölmələrinin fəaliyyətini yoxlayıb







*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə hava hücumundan müdafiə hərbi hissəsinin xidməti-döyüş fəaliyyətini yoxlayıblar.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissənin komanda məntəqəsində xidməti tapşırıqların yerinə yetirilməsi və mövcud vəziyyət barədə məruzələri dinləyib.

Müdafiə Nazirliyi xəbər verir ki, Nazirliyin rəhbər heyəti ixtisas hazırlığı üzrə məşğələlərin keçirilməsini izləyib, şəxsi heyətin peşəkarlıq səviyyəsi, nəzəri biliklərinin tətbiqi, həmçinin silah və texnikadan düzgün istifadə bacarıqları yüksək qiymətləndirilib.

General-polkovnik Zakir Həsənov HHM bölmələrinin arsenalına yeni daxil edilmiş müasir silah və texnikanın taktiki-texniki xüsusiyyətlərinin keçirilən təlim və məşqlər zamanı dərindən öyrənilməsi, onların döyüş şəraitində effektiv tətbiq imkanlarının mənimsənilməsi, şəxsi heyətin bu vasitələrdən düzgün və təhlükəsiz istifadə bacarıqlarının artırılması barədə Hava Döyüş Komandanlığına müvafiq tapşırıqlar verib.



# Müdafiə naziri HHQ-nin bölmələrində olub



*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə HHQ-nin bölmələrində olublar.*

Müdafiə Nazirliyi xəbər verir ki, şəxsi heyətlə görüşdə müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müdafiə qüdrətinin gün-dən-günə daha da gücləndiyini vurğulayıb. Qarşıya qoyulan tapşırıqların vaxtında və dəqiq icrasının təmin edilməsi istiqamətində Hava Döyüş Komandanlığına müvafiq göstərişlər verib.

Müdafiə nazirinə hərbi hissədə mövcud olan yataqxana, yeməkxana və tibb məntəqəsi təqdim edilib. General-polkovnik Zakir Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qida normalarına riayət olunması, sanitariya-gigiyena qaydalarının təmin edilməsi ilə bağlı müvafiq tövsiyələr verib.

Həmçinin ərazidə abadlıq, yaşıllaşdırma tədbirləri çərçivəsində xatirə ağacları əkilib və şəhid ailəsi ilə görüş keçirilib. Müdafiə naziri onların qayğıları ilə maraqlanıb, zəruri köməklik göstərilməsi barədə aidiyyəti şəxslərə tapşırıq verib. Şəhid ailəsi və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.









# Hərbi prokuror Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrində görüş keçirib



Hərbi prokuror ədliyyə general-mayoru Bəhruz Əhmədov Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrinin (HDQ) hərbi qulluqçuları ilə görüş keçirib.

AZƏRTAC xəbər verir ki, görüşün əvvəlində Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib.

Daha sonra Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Şahin Məmmədov dövlət rəhbərliyinin diqqət və qayğısı ilə yaradılmış şərait barədə geniş məlumat verib, maddi və texniki təchizatın yüksəldilməsi üçün mütəmadi işlərin görülməsini qeyd edib və HDQ Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən qarşılarına qoyulacaq bütün əmr və tapşırıqları vaxtında yerinə yetirməyə qadir olduqlarını bildirib.

Hərbi prokuror görüş zamanı HDQ-nin hərbi qulluqçularına nizam-intizamın artırılması ilə bağlı zəruri tövsiyə və tapşırıqlarını verib.



Tədbirin sonunda xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunub və xidməti fəaliyyətdə uğurlar arzulanıb.

# Tibb İdarəsində təlim-metodiki toplanış keçirilib

*2025-2026-cı ilin hazırlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin Tibb İdarəsində 2025-ci ilin yekunlarına həsr olunmuş təlim-metodiki toplanış keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə idarənin zabit heyəti, Baş Klinik Hospitalın şöbə rəisləri, qoşun (qüvvə) növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrin tibb xidməti rəisləri iştirak ediblər.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Təlim-metodiki toplanışda mövsümi xəstəliklərin yayılması, profilaktik tədbirlərin görülməsi, innovativ üsullarla müayinə və müalicə metodlarının aparılmasına dair məruzələr dinlənilib, eləcə də digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Amsterdamın mərkəzində "Xocalıya ədalət!" çağırışı

Amsterdamın mərkəzində yerləşən Dam meydanında Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan "Xocalıya ədalət!" aksiyası keçirilib.

Diaspora İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, aksiya Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində baş tutub.

Tədbirin əsas məqsədi 1992-ci il fevralın 26-da ermənilərin Xocalıda mülki əhaliyə qarşı törətdiyi dəhşətli soyqırımını dünya ictimaiyyətinin diqqətinə çatdırmaq, bəşəriyyətə müharibələrin günahsız insanlara yaşatdığı faciələri xatırlatmaq olub.

Aksiyada Niderlandda yaşayan gənc soydaşımız Cavidan Məmmədov Xocalı soyqırımı haqqında müfəssəl məlumat verib. Soydaşlarımızı Azərbaycan həqiqətlərinin dünyada təbliği istiqamətində fəaliyyətlərini davam etdirməyə çağırıb.

İştirakçılar "Xocalıya ədalət!", "Soyqırımına yox!", "İnsanlıq soyqırımına qarşıdır!", "Sülh naminə!" kimi şüarlar səsləndiriblər.

Tədbirdə yerli ictimaiyyətin nümayəndələrinə və şəhərin qonaqlarına məlumatlandırıcı materiallar paylanıb. Həmçinin "Xocalıya ədalət!" və müharibələr zamanı günahsız insanların həlak olmamasına dair çağırışları əks etdirən plakatlar sərgilənib, Xocalı soyqırımına həsr olunan həzin musiqi parçaları səsləndirilib.

Aksiya Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi, Benilüks ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Niderland koordinatorluğu və Ana Vətən Avropa Azərbaycanlı Qadınlar Birliyinin birgə təşkilatçılığı ilə reallaşıb.

# Texnikaya qulluq döyüşə hər an hazır olmaq deməkdir



Silah və texnikanın qorunub daima saz və işlək vəziyyətdə saxlanılması, ona vaxtlı-vaxtında zəruri, texniki qulluq göstərilməsi ordunun döyüş qabiliyyətinə təsir göstərən mühüm amillərdən biridir. Şəxsi heyətə təhkim olunmuş silah və texnikaya qulluğun göstərilməsi üçün Azərbaycan Ordusunda təsdiq edilmiş illik fəaliyyətlər planına uyğun olaraq kompleks tədbirlər görülür. Beləliklə, şəxsi heyət öz ixtisası üzrə döyüş texnikalarını, hərbi avtomobilləri, silahları saz, işlək vəziyyətə gətirməyə çalışır. Bütün bunların yerinə yetirilməsində əsas məqsəd ordumuzun qarşısında dayanan tapşırıqların icrasında fəaliyyətin tam, fasiləsiz təşkil olunmasını təmin etməkdir.

Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuz respublikamızın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək daha da gücləndirilib, hərbi potensialı daha da artırılaraq dünya orduları sırasında yer alıb və müasir tələblər səviyyəsində formalaşıb. Bu istiqamətdə görülən işlər uğurla davam etdirilir.

"N" hərbi hissəsinin tank saxlancında şəxsi heyətə təhkim olunmuş zirehli texnikalara qulluq və onların saz, işlək vəziyyətə gətirilməsi prosesini izlədik. Zirehli texnikaya qulluq göstərən tank komandiri gizir Elməddin Əbilov şəxsi heyətə təhkim olunmuş texnikalara qulluqla bağlı görülən işlərdən danışdı: "Texnikaya qayğı göstərmək, qulluq etmək və onu daima saz, işlək vəziyyətdə saxlamaq döyüşə hər an hazır olmaq deməkdir. Hər həftə şəxsi heyət tank saxlanclarında ona təhkim olunmuş zirehli texnikaya qulluq göstərir. Texnikadan dayanıqlı və tam istifadə etmək üçün ona planlı və lazımi texniki qulluq göstərmək zəruri şərtdir. Yeni tədris dövrünün başlanması ilə əlaqədar hərbi qulluqçularımız təhkim olunmuş texnikaların lazımi səviyyədə istismarını təmin etmək üçün vacib işləri aparır, baş verə biləcək hər hansı nasazlığı aradan qaldırmaq üçün çalışırlar. Onlar uzun illərdir ki, ordumuzun sıralarında xidmət edirlər, ixtisaslarının bilicisi, eyni zamanda, zirehli texnikanın sirlərinə - hər detalına belə bələddirlər. Texnikanın istismara hazır vəziyyətdə olması döyüş qabiliyyətinə təsir edən əsas məsələlərdən biridir. Təbii ki, verilən tapşırığın yerinə yetirilməsində vaxt və nəticə vacib hesab olunur. Bunun üçün də texnikanın hərəkətə manevsiz hazır olmasını təmin etmək üçün ona zəruri texniki qulluq da göstərmək mütləqdir".



Tank heyətinin üzvü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Həsrət Əzizov texnikaya texniki qulluğun lazımi qaydada göstərilməsinin yüksək praktik və nəzəri bilikdən yaranan təcrübə tələb etdiyini dedi:

- Eyni zamanda, zirehli texnikanın istər isti, istərsə də soyuq hava şəraitində istismarı üçün lazımi vasitələrlə, ehtiyat hissələri və avadanlıqlarla təmin olunmuşuq. Ümumilikdə, zirehli texnikanı idarə edən tank heyətimiz fərdi və qrup şəklində texnikanın hərəkət hissəsinə, döyüş hissələrinə lazım olan qulluğu göstərir, mühərriklərin yağ və filtrləri dəyişdirilir. Bölməmizin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün bütün çətinlikləri dəf etməyi bacarırıq. Döyüş sınağında uğurlu nəticələr qazanmış bölməmiz bu gün də Vətənə xidmətini layiqincə yerinə yetirir. Uğurlu xidmətimizlə komandanlığın bizə göstərdiyi etimadı doğrultmağa çalışırıq. Qalibiyyət bayrağını başı üzərində dalğalandıran şanlı Azərbaycan Ordusunun sıralarında Vətənimizə xidmət etməkdən hər birimiz qürurluyuq".

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

Təlim

# Dəqiqlik, intizam və peşəkarlıq



(Əvvəli 1-ci səhifədə)

Dünya hərb tarixində xüsusi yer tutan bu Zəfər müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttin uğurla davam etdirilməsi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl hərbi islahatların parlaq təcəssümünə çevrildi.

Bu gün də Azərbaycan Ordusunun gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır. Döyüş qabiliyyətinin artırılması, şəxsi heyətin peşəkarlığının yüksəldilməsi və müasir texnologiyaların tətbiqi istiqamətində görülən işlər ordumuzun gələcəkdə də regionun ən güclü hərbi qüvvələrindən biri kimi inkişafını təmin edir.

"N" hərbi hissəsinin təlim meydançasında keçirilən atəş hazırlığı dərsini izlədikdən sonra bir daha aydın olur ki, ordumuzda şəxsi heyətin döyüş hazırlığının artırılması gündəlik xidmət fəaliyyətinin əsas istiqamətlərindən biridir. Heç şübhəsiz, müasir döyüş şəraitində qələbəni təmin edən amillərdən biri silahın texniki imkanları qədər, onu nəzəri biliklərin deyil, real döyüş vərdişlərinin formalaşdırıldığı mühüm mərhələ hesab olunur.

Təlim səhərin erkən saatlarından başladı. Təhlükəsizlik qaydalarının xatırladılması, silahların texniki baxışı və şəxsi heyətin hazırlıq səviyyəsinin yoxlanılması ilə başlayan məşğələ mərhələli şəkildə təşkil edilmişdi. Hər bir hərbi qulluqçu atəş mövqeyinin seçilməsi, hədəfin düzgün qiymətləndirilməsi, məsafənin müəyyən edilməsi və dəqiq nişanalma kimi vacib





idarə edən hərbi qulluqçunun peşəkarlığı, çevik qərarvermə bacarığı və psixoloji hazırlığıdır. Məhz buna görə də atəş hazırlığı dərsləri yalnız elementləri praktiki şəkildə yerinə yetirirdi. Komandirlərin nəzarəti altında keçirilən məşğələ real döyüş şəraitinə maksimal uyğunlaşdırılmışdı.

Atəş hazırlığı məşğələsinə rəhbərlik edən taqım komandiri leytenant Seymur Hikmət oğlu Hüseynli şəxsi heyətin hazırlığına xüsusi diqqət yetirirdi. 29 iyun 1994-cü ildə Göygöl rayonunun Lahıc kəndində anadan olan zabit artıq 12 ildir ki, hərbi xidmətdədir. O, həm 44 günlük Vətən müharibəsinin, həm də 2023-cü ildə keçirilən antiterror əməliyyatının iştirakçısı kimi döyüş təcrübəsini gündəlik təlimlərdə şəxsi heyətlə bölüşür. Atası - ehtiyatda olan polkovnik-leytenant Hikmət Nurəddin oğlu Hüseynovun hərbçi olması onun bu peşəyə bağlılığını daha da gücləndirib.

Leytenant Seymur Hüseynli məşğələ zamanı hər bir əsgərin atış texnikasını diqqətlə izləyir, səhvləri dərhal izah edir və praktik tövsiyələr verirdi.

Leytenant Seymur Hüseynli dedi: "Atəş hazırlığı döyüşçünün düşünmə sürətini, özünə inamını və məsuliyyət hissini formalaşdırır. Döyüşdə saniyələr taleyüklü olur. Biz çalışırıq ki, şəxsi heyət həmin anlarda tərəddüd etməsin".

Məşğələnin fəal iştirakçılarından biri çavuş Şəfayət Səxavət oğlu Şəfili idi. Lerik rayonunun Züvüc kəndində doğulan hərbi qulluqçu 7 ildir xidmət edir. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatının iştirakçısı olan çavuş "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Çavuş Şəfayət Şəfili bildirdi ki, müharibədə anlayırsan ki, təlimdə öyrəndiyin hər detal həyati əhəmiyyət daşıyır. "Burada qazandığımız vərdişlər döyüşdə həm özünü, həm də döyüş yoldaşını qorumağa kömək edir. Ona görə hər məşğələyə real döyüş kimi yanaşırıq".

Antiterror əməliyyatında iştirak etmiş gizir İbrahim Sahib oğlu Həmidli isə atəş hazırlığının hərbçinin özünəinamını artırdığını vurğuladı. 2001-ci il təvəllüdlü Ağsu rayonundan olan gizir artıq 4 ildir xidmət edir.

Gizir İbrahim Həmidli dedi: "Silahı mükəmməl öyrənmək hərbçinin əsas borcudur. Təlimlərdə nə qədər çox məşq ediriksə, döyüşdə bir o qədər rahat hərəkət edirik".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayıl Böyükkişi oğlu Hüseynov 2020-ci il Vətən müharibəsində əsgər kimi iştirak edib. Kürdəmir rayonundan olan hərbi qulluqçu 4 ildir xidmət edir. Atası ehtiyatda olan baş gizirdir.

İsmayıl Hüseynov dedi: "Müharibədə başa düşdüm ki, ən güclü silah onu düzgün istifadə edən əsgərdir. Keçirilən məşqlər və təlimlər bizə həm texniki, həm də psixoloji hazırlıq verir".

44 günlük müharibə və antiterror əməliyyatının iştirakçısı "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuş gizir Elşad Elçin oğlu Ağayev atəş hazırlığını döyüş intizamının əsas sütunu hesab edir.

"Dəqiqlik təsadüf deyil - bu, minlərlə təkrarın nəticəsidir. Dərslərdə qazandığımız hər uğur döyüşdə qələbəyə çevrilir".

Antiterror əməliyyatı iştirakçısı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elməddin Nazif oğlu Hüseynov isə bildirdi ki, kollektiv ruh və qarşılıqlı dəstək məşğələlərin ən vacib tərəflərindəndir: "Burada hər kəs bir-birinə dayaq olur. Təlimlər təkcə atış bacarığı deyil, komanda ruhunu da möhkəmləndirir".

Məşğələnin gedişi göstərirdi ki, atəş hazırlığı məşqləri yalnız normativlərin yerinə yetirilməsi ilə məhdudlaşmır. Burada hərbi qulluqçular real döyüş situasiyalarına uyğun qərarvermə, sürətli reaksiya və psixoloji davamlılıq bacarıqlarını inkişaf etdirirlər. Komandir heyətinin tələbkarlığı ilə şəxsi heyətin məsuliyyət hissi birləşərək yüksək nəticələrin əldə olunmasına şərait yaradır.

Təlim meydançasını tərk edərkən bir həqiqət daha aydın hiss olunur: qələbələr yalnız döyüş günlərində qazanılmır. Onların təməli məhz belə səssiz, lakin gərgin məşqlərin keçirildiyi təlim sahələrində qoyulur. Hər atılan güllə, hər düzəldilən səhv, hər verilən əmr qələbəyə gedən bir yoldur.

Bu gün "N" hərbi hissəsinin şəxsi heyəti təlim meydanlarında öz peşəkarlığını artıraraq sabahın təhlükəsizliyini formalaşdırır. Çünki güclü ordu yalnız silahla deyil, hazırlıqlı, Vətəninə bağlı və məsuliyyətini dərindən dərk edən hərbçilərlə güclü olur. Məhz belə hərbi qulluqçuların sayəsində Azərbaycan əsgəri hər zaman qalib ordunun əsgəri olaraq qalır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**



# Unudulmayan Xocalı harayı

*Tarix bəzən bir gecənin içinə bütöv bir xalqın kədərini sığdırır. 1992-ci ilin 26 fevral gecəsi Xocalı üçün belə bir gecə oldu - qaranlıqdan da qara, şaxtadan da soyuq, insanlıqdan isə uzaq. O gecə səmada ulduzlar yox idi, yalnız alovların işığı vardı. Torpağın üstündə isə addım səsləri yox, güllə səsləri eşidilirdi. Uşaqlar ana qucağında dondu, analar övladının nəfəsini son dəfə yanağında hiss etdi, atalar ailəsini qorumaq üçün ölümün üstünə yeridi.*





Xocalı faciəsindən 34 il ötür, amma Xocalının harayı zamanın içində itib-batmır. Çünki Xocalı soyqırımı insanlığın vicdanına yazılmış qanlı bir ittiham aktıdır. Bu, yalnız Azərbaycanın deyil, bütün bəşəriyyətin imtahanı idi və təəssüf ki, həmin imtahandan keçə bilməyən bir dünyanın susqunluğu da o gecənin şahidinə çevrildi.

XX əsrin faciəsi olan Xocalı soyqırımı aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları Xocalı şəhərini yerlə-yeksan etdilər. Məkrli düşmənin qəddarlıqla həyata keçirdiyi bu amansız, qanlı cinayət həyata keçiriləndə xocalılılar son anadək vuruşaraq düşmən qarşısında əyilmədilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi - Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımının - vəhşiliyin görünməmiş təzahürüdür".

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Qarabağda yeganə hava limanı burada idi. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Dağlıq Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda, hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatları ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılıb, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılıb. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eramızdan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də azərbaycanlılara məxsus mədəniyyəti yer üzündən silmək idi.

Xocalının əhalisi 1991-ci ildə 7 min nəfər idi, burada Ermənistandan, Xankəndidən və Qarabağın digər yerlərindən ermənilər tərəfindən didərgin salınmış azərbaycanlılar, həmçinin Özbəkistandan çıxarılmış məhsəti türkləri də məskunlaşmışdılar.

**(Ardı 7-ci səhifədə)**

---

Ordenli igidlərimiz

## “Əsgərin vəzifəsi daim döyüşə hazır olmaqdır”

*Vətəni Vətən edən onun qəhrəman oğullarıdır. O oğullar ki, Vətənin ən ağır günündə sinələrini torpağa sipər edirlər. Vətən torpağı üçün həm Birinci, həm də İkinci Qarabağ müharibələrində xalqımızın mərd, igid oğulları Vətənə hər zaman sipər olublar. Onların qəhrəmanlıqları, şücaətləri düşmənə göz dağı olub. Düşmən nə qədər özünü güclü göstərməyə çalışsa da, Azərbaycan əsgərinin qarşısında aciz qalıb.*

Müharibə, döyüş, o qanlı günlər artıq arxada qalıb. İşğal da arxada qalıb. Bizə o ağrılı-acılı anları, günləri, ayları, illəri, onillikləri arxada qoyduran məğrur döyüşçülərimiz olub. Onları tanıtmaq, göstərdikləri qəhrəmanlıqları yaşatmaq, gələcək nəsillərə ötürmək ən ümdə məsələlərdəndir. Müharibə bitib, haqq və ədalət bərpa olunub, ancaq müharibənin vurduğu maddi və mənəvi yaraların acısı hələ də qalır. Bu acılar, bu ağrılar asanlıqla aradan qalxmayacaq. Buna zaman lazımdır.

“N” hərbi hissəsində əsgər və zabitlərlə söhbətimizdə şəxsi heyətin döyüş hazırlığından danışıldı. Zabitlərin məqsədi və məramı tabeliklərində olan əsgərlərin döyüş vərdişlərini daha da təkmilləşdirməkdir. Onlar da taktiki, atəş, sıra və digər hazırlıqlara daha dərindən yiyələnməklə, hərbi sirlərə maraq göstərməklə döyüş təcrübələrini daha da artırmış olurlar. Həmsöhbət olduğum baş leytenant Baloğlan Səmirov gənc zabitlərdəndir. O, indiki Heydər Əliyev adına Hərbi İnstitutu "Artilleriya" ixtisası üzrə bitirib. Zabit kimi hərbi xidmətə artilleriya hərbi hissəsində başlayıb. Çox keçmədi ki, İkinci Qarabağ müharibəsi başladı. Bölmənin baş zabiti kimi ilk gündən döyüş bacarığı ilə özünü təsdiqlədi. Söhbət zamanı Baloğlan Səmirov dedi:



- Hərbi xidmətə başladığım hərbi hissə düşmənlə təmas xəttinə yaxın məsafədə yerləşirdi. Planlaşdırdığımız çıxış məntəqələri var idi. Biz ora tez-tez ərazi kəşfinə gedirdik. Cəbhə bölgəsində vəziyyətin günbəgün ağırlaşdığını görürdük. Torpaqlarımızın iyirmi faizi düşmən işğalı altında idi. İstəyirdim ki, torpaqlarımızı yağı tapdağından azad edək. 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşləri vəziyyəti daha da gərginləşdirdi. Bundan sonra biz düşmən dərinliyində yerləşən mühüm hədəfləri müəyyən etdik. Həmin hədəflər bunlar idi: hərbi obyektlər, əsas və ehtiyat atəş mövqeləri, ön xəttə gedən avtomobil yolları, düşmənin əsgər və texnikalarının cəmləşdiyi məntəqələr, həmçinin komanda-müşahidə məntəqələrinin koordinatları. Bizə düşmənin bu mühüm hədəflərini sıradan çıxarmaq üçün bircə komanda kifayət idi. Çox keçmədi ki, 2020-ci ilin 27 sentyabrında arzuladığımız komandanı aldıq. İlk döyüş mövqeyim Horadiz kəndi yaxınlığındakı "Lələtəpə" istiqamətində olub. Əsgərlərlə birlikdə qarşımıza qoyulan döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirdik. Verilən hədəfləri dəqiq atəşlərlə məhv etdik. Düşmən çoxlu itki verdi. Onun döyüş qabiliyyəti xeyli aşağı düşdü və piyada bölmələrimizin irəliləməsi üçün əlverişli şərait yarandı. Beləliklə, atəş mövqelərimizi tez-tez azad edilmiş ərazilərə doğru irəli çəkdik.

Ucaboy, şux qamətli zabitin döyüş təəssüratlarını dinlədikcə xoş ovqata köklənirəm. Düşmən də döyüş zamanı bütün gücünü səfərbər etmişdi. Artilleriya bölmələri, bildiyimiz kimi, piyada bölmələrindən arxada döyüş aparsa da, düşmənə sarsıdıcı zərbələr endirməklə ümumi uğurun əldə olunmasında mühüm rol oynayır. Baloğlan Səmirovun komandiri olduğu top heyətləri qarşıya qoyulan döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirib. Bunun başlıca səbəbi döyüş öncəsi heyətin və heyət üzvlərinin öz vəzifələrini mükəmməl bilməsi və dəqiq icra etməsi olub.

Baş leytenant Baloğlan Səmirov dedi ki, atəş mövqeyinə çıxanda və ona ilk "Atəş!" komandası veriləndə qədər döyüşün başlanacağına inanmamışdı. Amma komandanı vaxt itirmədən yerinə yetirib. Arzusu və istəyi də bu olub ki, işğal altında olan bütün ərazilərimiz azad olunana qədər döyüş dayanmasın. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında bütün qoşun növləri üzərlərinə düşən döyüş tapşırıqlarını yüksək əhval-ruhiyyə ilə yerinə yetirirdilər. Çünki onlar neçə illər idi ki, Ali Baş Komandandan bu əmri gözləyirdilər. İşğal altında olan doğma şəhər və kəndlərə qayıtmaq istəyirdilər. 2020-ci ilin 27 sentyabrı doğma yerlərə qovuşmaq üçün bir fürsət idi.

Bu döyüşlərdə də iştirak edən baş leytenant Baloğlan Səmirovun komandiri olduğu bölmə düşmənə vurduğu sarsıdıcı zərbələrlə seçilirdi. Toplardan atılan hər mərmi məhv ediləcək hədəfə dəqiq köklənirdi. Bunun nəticəsində düşmən getdikcə zəifləyir, bölmələrimizin daha da irəliləməsi üçün mühüm şərait yaradılırdı. Füzuli, Cəbrayıl, Qubadlı və Laçın rayonlarının azad edilməsində Baloğlanın rəhbərlik etdiyi top heyətləri xüsusilə fərqlənirdi.

Baş leytenant Baloğlan Nəriman oğlu Səmirov döyüşlərdəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni və "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib. Sinəsində orden və medallar daşıyan gənc zabit tabeliyində olan şəxsi heyətin döyüş hazırlığını artırmaqda davam edir. O deyir ki, bu gün müharibə olmasa da, əsgərin vəzifəsi daim döyüşə hazır olmaqdır. Bu səbəbdən də üzərinə düşən vəzifənin məsuliyyətini dərk edərək tabeliyində olan şəxsi heyətə artilleriyanın sirlərini aşılamaqda davam edir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Milli Qəhrəmanlarımız*

# Vətən azadlıq üçün çalışanların müqəddəs yeridir



Torpağı - Vətəni sevmək, ona sahib çıxmaq insanın ən yüksək keyfiyyətlərindən biridir. Vətənpərvərlik doğma yurduna, torpağına sevgi, sədaqət, azadlıq və müstəqillik uğrunda canından keçməyi özünə şərəf saymaqdır. Hər bir övlad üçün Vətən onun ulu babalarının torpağı, əcdadının cəsarəti və gələcək nəsillərin etibar edəcəyi dəyərli bir mirasdır.

Azərbaycanın hərb tarixi Vətənin qəhrəman oğullarının imzası ilə yazılıb. Bu imza onların igidliyini, mərdliyini, qətiyyətini və şücaətini göstərən bir qəhrəmanlıq simvoludur. Vətəni sevən, onu qoruyan, hər zaman Vətən yolunda ölümün gözünə dik baxan oğullar xalqımızın azadlığı uğrunda apardığı mübarizədə həmişə ön sıralarda olublar. Vətən, torpaq uğrunda daim mübarizə aparan şücaətli oğullardan biri də Azərbaycanın Milli Qəhrəmanı Firudin İsa oğlu Şamoyevdir.

Firudin Şamoyev 1962-ci il fevralın 7-də Qazax rayonunda anadan olub. Orta məktəbi elə həmin rayonda bitirib. O, gənc yaşlarında Vətənə bağlı yüksək keyfiyyətlərə malik vətəndaş kimi yetişir. 1981-1983-cü illərdə müddətli həqiqi hərbi xidmətini şərəflə başa vurduqdan sonra doğma Vətənə - Qazax rayonuna qayıdır. Orada Təmir Tikinti İdarəsində çilingər peşəsində çalışır.

1991-ci ildə Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə xalqımızın istiqlal arzularını daha da alovlandırdı. Vətənimizin igid, vətənpərvər oğulları torpaqlarımızın müdafiəsi uğrunda könüllü olaraq cəbhəyə yollandılar. Bu çağırışa Firudin Şamoyev də səs verdi, könüllülərdən ibarət dəstəyə yazıldı və hərbi xidmətə başladı. O, "N" hərbi hissəsində minaatan bölüyünün komandiri vəzifəsinə təyin olunur və düşmənin qarşısını almaq üçün döyüşlərə qatılır. Firudin Şamoyev həm komandir, həm də cəsarətli döyüşçü kimi yoldaşlarının dərin hörmətini qazanır.

Firudin 1991-1992-ci illərdə Qazax rayonunun müdafiəsində qəhrəman döyüşçü kimi özünü göstərə bildi. Qazax rayonunun bir sıra kəndlərinin qorunmasında və azad edilməsində şücaətlə döyüşdü. O, Bağanis-Ayrım, Məzəm və Quşçu-Ayrım kəndləri ətrafında gedən döyüşlərdə düşmənin atəş nöqtələrinin məhv edilməsində xüsusi igidlik göstərdi. Vətən torpağını qorumaq üçün döyüş meydanında düşmənin canlı qüvvəsini və zirehli texnikasını məhv etməklə, özünəməxsus rəşadət göstərdi. Onun iştirak etdiyi döyüşlər Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin ən çətin anlarında baş verdi.

Firudin Şamoyev 1992-ci ilin 13 aprelində Qazax rayonunun Quşçu-Ayrım kəndi ətrafında gedən ağır döyüşlərdə qəhrəmanlıq göstərərək Vətən yolunda şəhidlik zirvəsinə yüksəldi. O, bütün xalq üçün əbədi qəhrəmanlıq nümunəsi oldu. Vətənpərvər qəhrəmanın üç övladı Vətənə əmanət qalıb.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Firudin İsa oğlu Şamoyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Bu ali ad onun Vətən qarşısındakı şücaətini, sədaqətini və cəsarətini rəsmi şəkildə tanıdıb. Cəsur döyüşçü Firudin Şamoyev Qazax rayonundakı Şəhidlər xiyabanında dəfn olunub. Rayondakı 4 saylı orta məktəb onun adını daşıyır.

Azərbaycanın Milli Qəhrəmanı Firudin Şamoyev Vətəni uğrunda canını fəda edən əsl Vətən oğludur. Onun həyat yolu göstərir ki, vətənpərvərlik, Vətənə bağlılıq, onu sevmək sözdə deyil, göstərdiyi igidliklə sübut olunan ali bir dəyərdir. Firudin Şamoyevin qəhrəmanlığı gələcək nəsillər üçün örnəkdir. Onun adı xalqımızın yaddaşında əbədi yaşayır və əziz xatirəsi həmişə yad edilir.

Şəhidlik... Bu söz yaddaşımızda adi bir ölüm kimi qalmayıb, həm ən uca məqam, həm də əbədiyyət, Vətənə sonsuz məhəbbət anlamını daşıyır. Şəhidlik zirvəsinə ucalanlar gözündə qorxu olmayan igidlərimizdir. Firudin Şamoyev də belələrindən idi...

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**



Şəhidlər xiyabanından keçir yolum - kədər, qürur, şərəf və ləyaqət hissi qəlbimə hakim kəsilir. Qarışıq hisslər içərisində addımlayıram. Nə qədər yarıda qalmış həyatlar, puç olmuş arzular, solmuş ömürlər, gəncliyin dadını bilməyən ürəklər yatır burada. Onları birləşdirən eyni, qisməti yaşadan Vətən sevgisi, torpaq həsrəti, azadlıq eşqidir. Əsrlərlə düşmən işğalına məruz qalan başıbəlalı yurdumuzun qoynunda minlərlə Vətən oğlu uyuyur. Torpaqlarımızın işğalı ilə barışmayan, Azərbaycanımızın bütövlüyü uğrunda canlarından keçən Vətən fədailərinin səssiz son mənzilləridir bura. Mənim qəhrəmanım da bu fədailər sırasındadır: Eldar Harun oğlu Məmmədov. Məzar daşında doğulduğu və şəhid olduğu tarixlər qeyd olunub - 1968-1993. 25 ilə sığan qəhrəmanlıq hekayəsi, dastanlara bərabər bir igid ömrü. Sizi 25 yaşında "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş, cəsur Azərbaycan oğullarından biri ilə tanış edəcəyəm.

Eldar Məmmədov 1968-ci il yanvarın 10-da Bakı şəhərində müəllim ailəsində anadan olub. 1982-ci ildə 189 saylı məktəbin 8-ci sinfini bitirdikdən sonra hərb sənətinə olan həvəsi onu C.Naxçıvanski adına hərbi məktəbə gətirir. Məktəbi bitirməklə kifayətlənməyən Eldar hərb elminin dərinliklərini öyrənmək üçün 1985-ci ildə Riqa şəhərində fəaliyyət göstərən Qırmızı bayraq ordenli Ali Hərbi-Siyasi Məktəbə daxil olur, 1989-cu ildə təhsilini burada başa vurur. Ali məktəbi bitirdikdən sonra SSRİ-nin Silahlı Qüvvələrində "leytenant" rütbəsində xidmətə başlayır. Vətənin dar günündə - erməni işğalçıları torpaqlarımıza hücum edəndə Eldar komandanlığa müraciət edib xidmətini Azərbaycanda davam etdirmək istədiyini bildirir. Müsbət cavab aldıqdan sonra Vətənə qayıdıb yeni yaradılan Sərhəd Qoşunlarında xidmətə başlayır. Peşəkarlıq və bacarıq nümayiş etdirdiyinə görə ona "baş leytenant" rütbəsi verilir.

Düşmən öz fitnəkarlığından əl çəkmir, ölkəmizə ərazi iddialarını davam etdirir, neçə ailəni gözüyaşlı qoyur, neçə ocağı söndürür, neçə igidin canına qıyır, vəhşicəsinə qətliamlar törədirdi. Elin qeyrətli oğulları kimi, Eldar Məmmədov da düşmənlə mübarizəyə qatılır. 1993-cü ildən Sərhəd Qoşunları İdarəsinin könüllülərdən ibarət batalyonu tərkibində Ağdərə istiqamətində gedən ağır döyüşlərdə iştirak edir, qeyri-adi şücaətlər göstərir. Nifrətlə yanıb-tutuşan Eldar Mehmanə kəndinin müdafiəsi zamanı düşmən cəbhəsinə ağır zərbələr endirir. 1993-cü il fevralın 24-də Kasapet kəndi yaxınlığındakı yüksəkliyin müdafiəsi zamanı mərdliklə vuruşan Eldar yoldaşları ilə birlikdə düşmənə çox sayda itkilərə məruz qoyur. Bundan azğınlaşan erməni quldurları yüksəkliyi ələ keçirmək üçün dəfələrlə hücuma keçirlər. Yüksək döyüş bacarığı, şərişdə nümayiş etdirən Eldar döyüş yoldaşları ilə hücumların qarşısını ala bilir. Ancaq çox keçmir ki, öz mənfur niyyətinə çatmaq üçün ermənilər qüvvə toplayıb yenidən hücuma başlayırlar. Bu döyüş ölüm-qalım savaşına dönür. Erməni quldurlarının əsas qüvvələrimizin arxasına keçməsinə imkan verməmək üçün istiqaməti üzərinə çəkən, bütün həmlələrə sinə gərən döyüşçülərimizin sıralarında şəhid olanlar və yaralananlar çox olur. Bu döyüşdə Eldar Məmmədov yaralansa da, son nəfəsinədək vuruşur. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv edir, lakin özü də bu döyüşdə qəhrəmancasına şəhid olur. Bu onun son döyüşü idi.

Eldar Harun oğlu Məmmədov Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Eldar Məmmədovun şücaəti yüksək qiymətləndirilib, 11 dekabr 1994-cü il tarixli Fərmanla ölümündən sonra o, "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülür. Adını əbədiləşdirmək üçün 1993-cü ildə Səbail rayonu 189-190 saylı orta məktəbə Eldar Məmmədovun adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 oktyabr 1995-ci il tarixli qərarına əsasən, "N" sərhəd zastavası Azərbaycanın Milli Qəhrəmanı Eldar Harun oğlu Məmmədovun adını daşıyır.

Bu, Vətən eşqini qəlbində yaşadan, onun istisində qızınan bir igidin həyat hekayəsi idi. Yaşasaydı, əminəm ki, onun qəhrəmanlıq dastanı neçə şücaətlərlə bəzədilmiş olacaqdı. Bəlkə özü kimi neçə qəhrəman övlad yetişdirəcəkdi, neçə-neçə nailiyyətlərə imza atacaqdı.

İgid qardaşım, sizin haqqınızda hələ çox yazılacaq, çox danışılacaq. Bu Vətən, bu od-ocaq sizinlə fəxr edir, bu gününə, işıqlı sabahına, azadlığına, Vətənin bütövlüyünə görə sizə borcluyuq və ruhunuz qarşısında baş əyirik! Uğrunda canınızdan keçdiyiniz torpaqda rahat uyuyun - övladlarının həsrətini çəkən, yolunu gözləyən Qarabağımız artıq 5 ildən çoxdur ki, azaddır. Səmasında üçrəngli bayrağı dalğalanan igidlər diyarımız gələn qonaqlarından alnıaçıq, üzüağ gözaydınlığı qəbul edir artıq!

**Sevinc QULİYEVA**
**Azərbaycan Ordusu"**

# Şəhid həkimin xatirəsi ehtiramla yad edilib




Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan tibb xidməti polkovnik-leytenantı Rasim Yaqub oğlu Abdullayevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi Memorial Məzarlıqda keçirilən tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və həkim yoldaşları iştirak ediblər.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Çıxış edənlər torpaqlarımızın işğaldan azad olunması uğrunda qazanılmış şanlı Qələbənin tarixi əhəmiyyətindən, şəhidlərimizin döyüşlərdə göstərdikləri igidlik və şücaət



nümunələrindən bəhs edərək onların şərəfli həyat yolundan danışıblar.

Sonda şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Unudulmayan Xocalı harayı

(Əvvəli 5-ci səhifədə)

Xocalının işğalı düşmənin əvvəlcədən hazırlanmış planı əsasında aparıldı. Xocalı 1991-ci ilin oktyabrından blokada vəziyyətində idi. 1991-ci ilin oktyabrında Tuğ və Sələkətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevralında Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Qarabağın ən iri yaşayış məskənlərindən olan Qarabağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin iştirakı ilə işğal olundu. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar var idi. Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yerinə yetirildi. Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, çoxlu erməni hərbçilərinin xidmət etdiyi keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı da Xocalı şəhərinə hücum etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirilməsində iştirak etmişdir.

Düşmən Xocalıya hücum zamanı qəsəbə toplardan, zirehli texnikalardan fasiləsiz atəşə tutuldu, xarabalığa çevrildi. Həmin dövrdə Ermənistanın prezidenti L.Ter-Petrosyan erməni ordusuna müraciətlə deyirdi: "Siz, ermənilər düşməni öldürərkən ürəyiyumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Sonralar əsir götürülmüş erməni əsgərlərinin dedikləri bu vəhşi tapşırığın həyata keçirildiyini təsdiq edir. Ermənistanın eks prezidentlərindən biri Serj Sarkisyan isə ermənilərin həqiqi simasını açaraq xarici jurnalistlə müsahibəsində bildirirdi: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu streotipi dağıtdıq. Məhz bu baş verdi".

Jurnalistin minlərlə adamın öldürülməsindən təəssüf keçirdib-keçirmədiyi sualına Sarkisyan belə cavab vermişdi: "Mən heç bir təəssüf keçirmirəm, çünki hətta minlərlə əhali ölərsə, bu cür sərt gedişlər zəruridir". Bir vaxtlar Ermənistanda ən yüksək siyasi və hərbi vəzifə tutan bir şəxsin bu cür sözləri azərbaycanlı mülki əhaliyə qarşı törədilmiş cinayətlərin əvvəlcədən düşünülmüş plan əsasında həyata keçirildiyini təsdiq edir.



Dünya birliyinin gözü qarşısında baş verən bu dəhşətli qətliam xüsusi qəddarlıqla həyata keçirilmişdi. Düşmən Xocalı şəhərini yerlə-yeksan etdi. Faciə günü şəhəri tərk edən əhali pusquya salındı və Naxçıvanlı, habelə Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildi, ya da əsir götürüldü. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd etdilər. Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda təqibdən gizlənən zaman donvurma nəticəsində həlak oldular.

Xocalı soyqırımında 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi, 56 nəfər xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürülüb, 27 ailənin yalnız 1 üzvü qalıb, 230 ailə öz başçısını itirib, 487 insan şikəst olub (onlardan 76 nəfər həddi-buluğa çatmayanlardır). Həmin gecə 1275 nəfər dinc sakin girov götürüldü, 1165 nəfəri daha sonra girovluqdan azad etmək mümkün oldu, onlardan 150-nin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır.

Düşmənin bu hücumunun məqsədi heç də Xocalı üzərinə hərbi əməliyyat keçirmək deyildi, dinc əhaliyə divan tutmaq idi. Düşmən Xocalıda ciddi hərbi qüvvə olmamasından xəbərdar idi. Şəhərin azsaylı müdafiəçiləri XTM dəstəsinin bir bölüyü, yerli özünümüdafiə taboru və minaatan batareyasından ibarət idi. Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin rəhbərlik etdiyi bu qüvvələr sonadək müqavimət göstərdilər, lakin düşmənin dəfələrlə üstün qüvvəsi və texnikasının qarşısını ala bilmədilər. Şəhərin müdafiəçilərinin, demək olar ki, hamısı son damla qanına kimi döyüşdü, şəhid oldu.

Xocalının sağ qalmış sakinləri hadisələri xatırlamaqdan da dəhşətə gəlirlər. Sənubər Ələkbərova deyir: "Meyitlərdən böyük bir dağ əmələ gəlmişdi, anamı güllələdilər, qızlarım Sevinc və Hicranı yaraladılar, güllə mənə də dəydi, gənc qadınlar və uşaqlar qarın üstündə ölürdülər".

On bir yaşlı Ramil Həsənov xatırlayır: "Dostlarım Elçin və Elgizin meşədə necə öldüklərini yadımdan çıxara bilmirəm, onların ayaqları donmuşdu, bizimlə qaça bilmirdilər, lal-dinməz qarın üstündə uzanmışdılar və yavaş-yavaş gözlərini yumurdular".

Səriyyə Talıbova isə daha dəhşətli hadisələrin şahidi olmuşdu: "Bizi erməni qəbiristanlığına gətirdilər... Burada erməni döyüşçünün qəbri üstündə 4 məshəti türkünün və 3 azərbaycanlının başını kəsdilər... Sonra valideynlərin gözləri qarşısında uşaqlarına işgəncə verdilər və öldürdülər... Az sonra milli ordunun formasında 2 azərbaycanlını gətirdilər, ucu iti dəmirlə onların gözlərini çıxartdılar".

İşğalın nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb.

Xocalı faciəsinə hüquqi-siyasi qiymət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildi. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etdi. Ulu Öndərin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə Respublika ərazisində sükut dəqiqəsi elan olundu.

Azərbaycan hökuməti və dünya azərbaycanlıları erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması bu qətliamın soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərirlər.

Xocalı faciəsi barədə dünya ictimaiyyətinə dolğun və geniş məlumatlar verilməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının da xüsusi xidmətləri vardır. Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir. 100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyir. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunmuşdur. Azərbaycan həqiqətlərinin əsil mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür. Xocalı soyqırımı haqqında dünyanın müxtəlif ölkələrində keçirilən aksiyalara dəstək məqsədilə xüsusi hazırlanmış ekspozisiyalar, ingilis dilində bukletlər göndərilir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri vasitəsilə ABŞ, Cənubi Afrika Respublikası, Koreya Respublikası, Belarus, Çexiya, Fransa, Gürcüstan, İndoneziya, İsveç, İngiltərə, İsrail, İordaniya, Kanada, Qətər, Qazaxıstan, Özbəkistan və Yaponiyada təqdim olunan 17 ekspozisiya və nəşrlərlə yanaşı, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İran, İspaniya, Macarıstan, Səudiyyə Ərəbistanı, Türkiyə və Türkmənistan ictimaiyyəti də Xocalıda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qanlı cinayət və vandalizm aktları barədə geniş məlumat əldə etmişdir.

Xocalı vəhşilikləri haqqında xarici jurnalistlərin yazıları:

"Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu". "Krua l'Eveneman" jurnalı (Paris), 25 fevral 1992-ci il.

"Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər". "Sandi Tayms" qəzeti (London), 1 mart 1992-ci il.

"Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar". "Fayenşl Tayms" qəzeti (London), 9 mart 1992-ci il.

Xocalı faciəsindən sonra o dəhşətli hadisələri lentə alan Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.

"Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır". "Tayms" qəzeti (London), 4 mart 1992-ci il.

"Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür". "İzvestiya" (Moskva), 4 mart 1992-ci il.

"Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır". "Le Mond" qəzeti (Paris), 14 mart 1992-ci il.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını döyüş meydanında aldı, şəhidlərimizin qanı yerdə qalmadı, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Prezident İlham Əliyevin dediyi kimi: "Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın".

Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu kəlamları Xocalının dəyərini göstərməkdədir: "Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik".

Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqlarından və qeyri-qanuni erməni silahlı dəstələrindən təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

2025-ci il fevralın 25-də Prezident İlham Əliyev "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Sərəncam imzalayıb. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin təməlqoyma mərasimi 2024-cü il 26 fevral tarixində baş tutub. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılan Xocalı Soyqırımı Memorial Kompleksi müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar yer alacaq.

İşğaldan azad olunmuş Xocalıda da bərpa-quruculuq işləri davam edir. 2026-cı il 19 yanvar tarixinə qədər Xocalı şəhəri və kəndlərinə 881 ailə, 3602 nəfər köçürülüb.

Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq, unutdurmayacaq. O gecənin ağrısı yaddaşımızda, şəhidlərin xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

(Əvvəli 1-ci səhifədə)

*Tikdim ki, izim qala...*

# Sirli və möhtəşəm Gülüstan qalası


*Gülüstan qalasının qalıqları*

Qala öz möhtəşəmliyi və memarlıq üslubuna görə unikal bir abidədir. Şirvan-Abşeron memarlığı formasında inşa edilən qalanın divarları və bürcləri yonulmuş əhəng daşından gəc məhlulu ilə tikilib. Qalaya çıxışın mümkün olduğu bütün yerlər keçilməz qala divarları ilə kəsilib.

Gülüstan əsrlər boyu Şirvan hökmdarlarının iqamətgahı olub və şahın xəzinəsi burada qorunub. Düşmən hücumları zamanı hökmdar və onun ailəsi də bu qalada müdafiə olunub. Azərbaycan hərb tarixində şanlı iz qoyan Gülüstan qalası əsrlər boyu düşmən hücumlarına mərdliklə sinə gərib. Əlbəttə, amansız müharibələr və dağıdıcı zəlzələlər bu yerdən də izsiz ötüşməyib. Lakin buna baxmayaraq, qalanın iki bürcü və qala divarlarının bir hissəsi zəmanəmizədək gəlib çatıb.

Mənbələrdə Gülüstan qalası haqqında ilk məlumat VIII əsrə təsadüf edir. Ərəb tarixçisi Təbərinin məlumatına görə 733-734-cü illərdə Müslüm ibn Əbd əl-Məlik Şirvana hücum edərkən "Qaleyi Duxteran"ı (Qız qalası. Yerli sakinlər Gülüstan qalasına Qız qalası da deyirlər) tutaraq dağıdıb. Şirvanşahlar tərəfindən bərpa edilən Gülüstan qalası 1123-cü ildə Səlcuq sultanı Mahmud (1118-1131) tərəfindən yenidən dağıdılıb. Bir qədər sonra qala Şirvanşah II Məniçöhrün (1120-1149) bacısı Şahbanu tərəfindən bərpa edilib.

XII əsr dahi Azərbaycan şairi Xaqani Şirvani qəzəllərinin birində Gülüstan qalasını Kəbə yaxınlığındakı Buqbeys dağına bənzədib. 1222-ci ildə monqollar Şamaxını işğal edərkən Şirvanşah ailə üzvləri ilə Gülüstan qalasında sığınacaq tapıb.

XV əsrdə Şirvana hücum edən səfəvi şeyxləri Cüneyd və Heydər Gülüstan qalasını tutmağa çalışsalar da, buna nail ola bilməyiblər.

XVI əsrin əvvəllərində Şah İsmayıl Səfəvinin Şirvana hücumu zamanı (1500-cü il) Gülüstan qalası möhkəm hərbi istehkam rolunu oynayıb.

1537-ci ildə I Təhmasib Şirvana hücum edərkən Şirvanşah Şahrux əvvəl Gülüstan, sonra isə Buğurt qalasına çəkilib. Bir il sonra Səfəvilər Buğurt qalasını tutaraq Şirvanşah Şahruxu əsir alıb və Şirvanşahlar dövlətinin varlığına son qoyublar. Buğurt qalasının işğalından sonra səfəvilər Gülüstan qalasını tutaraq dağıdıblar. Səfəvi-Osmanlı müharibələri dövründə Osmanlılar tərəfindən zəbt edilən Gülüstan qalası qismən bərpa edilsə də, XVII əsrin əvvəllərində I Abbas tərəfindən tamamilə dağıdılıb.

Gülüstan qalasının arxeoloji baxımdan tədqiqi XX əsrin 30-cu illərindən başlanıb. 1938-ci ildə professor Y.A.Paxomov burada kəşfiyyat işləri aparıb və qalanın su təchizatı, müdafiə sistemi, gizli yolları haqqında maraqlı mülahizələr irəli sürüb.

1967-ci ildə arxeoloq H.Cidi Gülüstan qalasının Narınqala hissəsində arxeoloji tədqiqat işləri apararkən dörd otaq və dəhlizin divarlarını üzə çıxarıb. Qazıntılar zamanı XII əsrə aid maddi-mədəniyyət nümunələri - şirli və saxsı qablar, çıraqlar, ox və nizə ucluqları, əmək alətləri və s. aşkar edilib.

2010-cu ildən başlayaraq AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şamaxı-Ağsu arxeoloji ekspedisiyası Gülüstan qalasında arxeoloji tədqiqatlara başlayıb. Tədqiqat zamanı İlk Orta və Orta əsrlərə aid müxtəlif təyinatlı tikililərin qalıqları, çoxlu sayda müxtəlif ölçülü şirli və şirsiz qab fraqmentləri, yerli və xarici ölkə istehsalı olan saxsı qablar və kaşılar, şüşə və pastadan hazırlanan muncuqlar, şüşə qolbaqlar, əmək alətləri və silah nümunələri, su xətti, daş kitabə, gümüş və mis sikkələr, insan skeleti, heyvan sümükləri aşkara çıxarılıb. Gülüstan qalasından ən qədim tapıntılar IV əsrə aid Bizans imperatoru I Konstantinin mis sikkələridir.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



### NATO təlimində "Bayraktar TB3" ilə "Eurofighter" təyyarələri birgə uçuş nümayiş etdirib

Türkiyənin amfibiya gəmisi üzərində yerləşdirilən "Bayraktar TB3" silahlı pilotsuz uçuş aparatı (SİHA) NATO təlimində "Eurofighter" döyüş təyyarələri ilə birgə uğurlu uçuş nümayiş etdirib.

Uçuş Baltik bölgəsində keçirilən mühüm fəaliyyətlərdən biri olan "Steadfast Dart 2026" təlimi çərçivəsində icra edilib.

"TCG Anadolu" gəmisindən havalanan "Bayraktar TB3" "Eurofighter"lərlə ortaq missiya zamanı 8 saat uçaraq 1700 kilometr məsafə qət edib.

Türkiyənin müdafiə sənayesinin pilotsuz sistemlər sahəsində çatdığı səviyyəsini göstərən bu uçuş "Eurofighter" təyyarələri ilə pilotlu və pilotsuz platformaların birlikdə fəaliyyət modelinin sınağı kimi də qiymətləndirilir.

### ABŞ qüvvələri Suriyadakı "Qəsrək" bazasını təhvil verir



ABŞ-nin rəhbərlik etdiyi beynəlxalq koalisiya qüvvələri Suriyanın Həsəkə vilayətindəki "Qəsrək" bazasını boşaltmağa başlayıb.

Bu barədə Suriya telekanalı məlumat verib.

Yerli medianın məlumatına görə, ABŞ ordusuna aid 20-dən çox boş yük maşını və hərbi texnikadan ibarət karvan İraq sərhədindən keçərək bazaya doğru hərəkət edib. Nəqliyyat vasitələri təxliyə əməliyyatında istifadə olunacaq.

Bu ay Suriya Müdafiə Nazirliyi "əl-Şəddadi" və "əl-Tanf" hərbi bazalarını ABŞ komandanlığından təhvil alıb.



### İndoneziya Prezidenti: Qarşıdakı 1-2 ay ərzində Qəzzaya ilk qoşun bölməsi göndəriləcək

İndoneziya Prezidenti Prabovo Subianto sülhü təmin etmək və atəşkəsi qorumaq üçün Qəzza zolağına 8 min və ya daha çox əsgər göndərməyə hazır olduğunu bildirib.

İndoneziya mediası xəbər verir ki, Prezident Prabovo Subianto Vaşinqtonda Sülh Şurasının iclasında iştirakdan sonra ölkə jurnalistlərinə müsahibəsində belə deyib. O, təxminən 1-2 ay ərzində ilk qoşun bölməsinin Qəzza zolağına göndəriləcəyini söyləyib.

İndoneziyanın Xarici İşlər Nazirliyi missiyanın humanitar yardım, yenidənqurma və mülki əhalinin qorunmasına yönələcəyini bildirib.

İndoneziya ilə yanaşı, Mərakeş, Qazaxıstan, Kosovo və Albaniya Qəzzaya qoşun göndərməyə razılıq veriblər.

### Avropa ölkələri dron proqramı ilə bağlı razılığa gəlib



Avropanın 5 ölkəsi qitənin hava məkanının qorunması üçün yeni dron proqramı ilə bağlı razılığa gəlib.

Bu barədə Böyük Britaniya Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilir ki, Britaniya, Fransa, Almaniya, İtaliya və Polşanın müdafiə nazirləri Krakov şəhərində məsələni müzakirə ediblər.

Nazirlər dronların çox baha başa gələn hava hücumundan müdafiə sistemlərinə alternativ olduğunu bildiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Uğurlarınız bol olsun!




22 fevral 2026-cı il tarixində keçirilən cüdo üzrə U-14 ACF Liqasının 1-ci turunda Ordu İdman Klubunun cüdoçuları Kərim Məmmədov qızıl medal, Təhmasib Şamilzadə bürünc medal qazanıblar.

İdmançıları və onların uğurunda əməyi olan məşqçi heyətini təbrik edirik.

**"Azərbaycan Ordusu"**




# İdman

### Azərbaycan güləşçisi Belarusda qızıl medal qazanıb



Belarusun paytaxtı Minskdə 3 qat olimpiya çempionu Aleksandr Medvedin xatirə turniri keçirilib.

55-ci dəfə təşkil edilən yarışda sərbəst güləş üzrə milli komandanın üzvü Abubakr Abakarov (92 kq) uğurlu çıxış edib. Bütün rəqiblərinə qalib gələn təmsilçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Abubakr finalda dağıstanlı Qamzat Qasanov üzərində inamlı qələbə qazanıb - 12:5.



### Şahmat üzrə Azərbaycan çempionatı başa çatıb

Şahmat üzrə Azərbaycan çempionatına yekun vurulub. Kişilərdə Məhəmməd Muradlı, qadınlarda isə Ülviyyə Fətəliyeva ölkə çempionu olub.

Mükafatları gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov və digər rəsmi şəxslər təqdim ediblər.

### Azərbaycan gimnastları Bakıdakı Dünya Kubokunu 6 medalla bitiriblər



Bakıda keçirilən batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku, "AGF Trophy" başa çatıb.

Milli Gimnastika Arenasında iki gün davam edən turnirdə 6 ölkədən 66 gimnast medallar uğrunda mübarizə aparıb.

Azərbaycan yarışı 6 mükafatla başa vurub.

Batut gimnastikası üzrə qarışıq sinxron proqramda Maqsud Mahsudov - Selcan Mahsudova cütlüyü qızıl, fərdi proqramda Selcan Mahsudova gümüş, sinxron qadınlar proqramında Selcan Mahsudova - Şəfiqə Hümbətova, kişilərdə Maqsud Mahsudov - Hüseyn Abbasov cütlüyü bürünc medal qazanıb.

Tamblinq üzrə isə Mixail Malkin qızıl, Tofiq Əliyev gümüş mükafata sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor<br>Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin<br>Hərbi Nəşriyyatı üzrə növbətçi:<br>(012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu,<br>Şəfaət Mehdiyev küçəsi 144,<br>"Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq<br>Kod: 200189<br>VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Bəxtiyar ƏLİYEV | Lisenziya № 361<br>Sifariş № 143<br>Nüsxə 3621 |